*16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür*

# Nic qəsəbəsi unikal tolerantlıq nümunəsidir

***Beynəlxalq Tolerantlıq Günü 16 noyabr 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Prezident cənab İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan aylarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu göstərir.***

***Ölkə başçısı Bakıda keçirilən "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" adlı beynəlxalq konfransda bir daha bəyan edib ki, dünyada sülhün, əmin-amanlığın təmin edilməsi, asayişin qorunması üçün mütləq dinlərarası münasibət, dinlərarası dialoq gücləndirilməlidir.***

***Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgəyaşayışında görən cənab İlham Əliyev bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır.***

Müxtəlif dinlərə sitayiş edən xalqların numayəndələrinin yasadığı Nic qəsəbəsi həmişə tolerant dəyərləri ilə tanınmışdır. Qəsəbəmizdəki Çotari xristian kilsəsinin keşişi kimi mənim fəaliyyətimin əsas məqsədi bu qəsəbədə dini tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsidir. Qəsəbəmizdə xristian kilsəsi ilə yanaşı iki məscid də fəaliyyət göstərir. Mən bu sahədə daim həmin məscidlərin axundları ilə əlaqə saxlayıram. Artıq islam dininə aid bayram və mərasimlərdə mənim, xristian dininə aid tədbirlərdə isə bu məscidlərin imamlarının iştirakı adi hala çevrilib və bu heç kəsi təəccübləndirmir. Bu ona görə belədir ki, tolerantlıq tarix boyu Nic qəsəbəsində yaşayan əhalinin gündəlik həyat tərzinə çevrilib. Müxtəlif dinlərə sitayiş edən insanların dostluq şəraitində yaşadığı bizim Nic qəsəbəsi bütün dünyada tolerantlıq nümunəsi olan unikal bir yerdir. Burada hec bir dinə aid dini radikalizmə yer yoxdur və ola da bilməz. Çünki, dini radikalizmlə tolerantlıq bir araya sığmır. Hazırda qəsəbəmizdə hec bir qanunsuz dini sektaya üzv olan dindara rast gəlmək mümkün deyil. Bir daha bildirirəm ki, qəsəbəmizin sakinləri dövlətimizin tolerantlıq sahəsində fəaliyyətini tam dəstəkləyir və dostluğumuzu, mehribançılığımızı heç bir kənar qüvvə sarsıda bilməz

**✍ Rafiq Dallari,**
**Çotari kilsəsi.**

Nic qəsəbəsindəki "Çotari" Alban kilsəsində Beynəlxalq Tolerantlıq Günü münasibəti ilə tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbə müdiri Gündüz Paşayev, şöbənin əməkdaşları Zaman Şirinov, Ruslan Mobili, qəsəbə inzibati ərazi nümayəndəsi İbrahim Məmmədov, Alban-Udi Xristian dini icmasının sədr müavini Rafiq Dallari, icma üzvləri, qəsəbə ağsaqqalları və ziyalılar iştirak ediblər.

## Tolerantlıq günü qeyd olunmuşdur

Tədbirdə Gündüz Paşayev çıxış edərək bildirib ki, tolerantlıq Azərbaycan xalqının əsrlər boyu formalaşan başlıca xüsusiyyətidir. O, Azərbaycan ərazisinin bütün dövrlərdə dini və etnik ayrı-seçkiliyə məruz qalan insanlar üçün sığınacaq olduğunu vurğulamışdır.

Tədbirdə daha sonra İbrahim Məmmədov, "Orayin" Udi Mədəniyyət Mərkəzinin rəhbəri Oleq Danakari, qəsəbə ağsaqqalları Rövşən Balayev və Frans Vartanov çıxış edərək qəsəbədə yaşayan xalqlar arasında hər zaman mehriban münasibətlər olduğunu söyləmişlər.

# Şəhər 5 nömrəli məktəbdə tədbir keçirilmişdir

Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə rayon polis şöbəsi və Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən uşaq hüquqları aylığı cərçivəsində "Ailə münasibətləri və uşaq hüquqları" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə Qəbələ Rayon Polis Şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Faiq İsmayılov, polis baş leytenantı Azər Hüseynov, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəna Mahmudova, məktəbin direktoru Zərnişan Ağamirzəyeva və məktəbin yuxarı sinif şagirdləri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Azər Hüseynov açmışdır. O, tədbirin mahiyyətini açıqladıqdan sonra çıxış üçün sözü Faiq İsmayılova vermişdir. Faiq İsmayılov "Narkomaniya, narkotik vasitələrin və onların prekusorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda məruzə etmişdir.

Qəbələ UADM-in direktoru Rəna Mahmudova "Ailə münasibətləri və uşaq hüquqları" mövzusunda çıxış etmişdir. O, ailədə uşaqların hüquqlarından, ailə münasibətlərinin pozulması zamanı uşaqların psixologiyasına təsir edən amillərdən, erkən nikahlardan, boşanmalardan və bu zaman uşaqların aldığı psixoloji travmalardan danışmış, bu sahədə rayonda aparılan maarifləndirmə işlərindən bəhs etmişdir.

Polis baş leytenantı Azər Hüseynov öz çıxışında uşaq hüquqları ilə əlaqədar qanunların müddəalarından, rayonda bu sahədə uşaqlarla aparılan profilaktiki işlərdən ətraflı danışmışdır.

Sonra uşaqları düşündürən suallar cavablandırılmışdır.

Tədbiri məktəbin direktoru Zərnişan Ağamirzəyeva yekunlaşdıraraq uşaqlara verilən məsləhətlər üçün tədbirin təşkilatçılarına öz təşəkkürünü bildirmişdir.

**✍ Fərid RAMAZANLI,**
**Qəbələ UADM-in əməkdaşı.**

# 17 noyabr Milli Dirçəliş günüdür

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində 17 Noyabr Milli Dirçəliş günü ilə əlaqədar dəyirmi masa təşkil edilmişdir. Azərbaycan xalqının bir yumruq kimi yumruq kimi birləşərək ölkəmizdə milli azadlıq hərakatının geniş miqyas alması 17 noyabr gününü tariximizə yazdı. Həmvətənlərimizin 1988-ci ildə Qərbi Azərbaycan torpaqlarından kütləvi surətdə çıxarılması, işgəncə və zülmlərə məruz qalması, səbr kasası dolub-daşan xalqımızın bütün bunlara qarşı etirazlarını, haqq səslərini yüksəltdi. Haqq səsini dünyaya bəyan edən xalqımız məhz bununla da yeni bir tarix yazdı. Dəyirmi masada tarixi Vətən torpaqlarımızda ermənilərin törətdikləri özbaşınalıqlar, ərazilərimizin işğalı haqqında geniş söhbət aparıldı.

**✍ İlhamə SEYİDOVA,**
**muzeyin elmi işçisi.**

# Problemlər həllini tapır

Əməkdaşımız Uludaş kəndində olarkən rayon icra hakimiyyəti başçısının Uludaş kənd inzibati ərazisi üzrə nümayəndəsi İkram Nəbiyevlə görüşmüş, görülən işlərlə maraqlanmışdır. İkram Nəbiyev bildirmişdir ki, üç ay öncə bu vəzifəyə təyin olunmuşdur. Avqustun 1-də kənd camaatı ilə görüşündə ərazidə bir sıra həlli vacib problemlərin olduğu aşkar edilmişdir.Görüşün səhəri günündən nümayəndəliyin gücü səviyyəsində olan işlərin həllinə başlanmışdır. Kəndi Qəbələ şəhəri ilə birləşdirən yolun Bum çayı üzərində salınmış, lakin güclü yağış suları nəticəsində yuyulmuş su keçidi bərpa edilmişdir. Eləcə də yaşayış məntəqəsinin mərkəzindəki artezian bərpa olunaraq əhalinin istifadəsinə verilmiş, digər artezianın təmir edilməsi üçün müvafiq işlər aparılır. Uludaş sakinləri Mahir və Şahmar Qasımovların evləri kənddən aralı olduğuna görə onlar uzun müddətdir ki, elektrik enerjisindən istifadə edə bilmirdilər. Numayəndəlik «Azərişığ»ın rayonumuzdakı regional təşkilatı ilə birlikdə həmin problemi həll etmişdir. Kənd ərazisində köhnəlib sıradan çıxmış, təhlükə mənbəyi olan elektrik dirəkləri yeniləri ilə əvəz olunmuşdur. Ərazidə əlavə elektrik transformatorunun qoyulması da ilin sonunadək həll olunacaqdır.

Hazırda kəndarası yolların qaydaya salınması işlərinə başlanılmışdır.

***«Qəbələ».***

# Bayramkoxalıda işlərin qızğın çağıdır

Rayonumuzun Düzəncə adlanan ərazisində öz zəngin kənd təsərrüfatı ənənəsi olan kəndlərdən biri də Bayramkoxalı kəndidir. Tarixən bu kəndin camaatı yaxşı əkinçi, bacarıqlı heyvandar kimi tanınıb. Bir sözlə çörəkli kənd olub, Bayramkoxalı. Hələ sovet hakimiyyəti illərində bu kənd taxıl, üzüm, tütün, heyvandarlıq məhsulları istehsalına görə rayonda, respublikada qabaqcıllar sırasında idi. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində başabəla «alimlərin» fitvası ilə kəndin üzüm bağları, tütün sahələri, rayonda ən iri heyvandarlıq kompleksi «sosializm» atributu kimi ləğv edildi. Kəndli torpaqdan soyudu.

Ancaq son illər ölkə Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının yüksəldilməsinə göstərdiyi qayğı sayəsində respublikamızın bütün bölgələrində olduğu kimi Qəbələdə, o cümlədən Bayramkoxalı kəndində də əhali yenidən kənd təsərrüfatının dirçəldilməsi işlərinə başladı. Bayramkoxalı Bələdiyyəsinə daxil olan Ovcullu kəndində ölkədə ən müasir tipli heyvandarlıq kompleksi yaradıldı. Kənd yaxınlığında yüksək məhsuldar meyvə bağları salındı. Əkinçiliyə diqqət yüksəldi. Bir sözlə, Bayramkoxalıda ənənəvi kənd təsərrüfatı yenidən, müasir və daha yüksək formada inkişaf etməyə başladı. Hazırda Bayramkoxalıda payız əkininin qızğın çağıdır. Havaların əlverişli keçməsi əkinçiləri daha da ruhlandırıb. Onlar günün 24 saatı tarladadırlar. Bundan başqa kənd bağlarında da ağacların budanması, yeni ağac əkini işləri gedir. Bu il kəndlilər daha çox fındıq bağlarının genişləndirilməsinə diqqət yetirirlər.

Bayramkoxalı Bələdiyyəsi kənd inzibati ərazi nümayəndəliyi ilə birlikdə kəndlərarası və kəndarası yollara qum-çınqıl tökdürüb hamarladır. Bir sözlə, Bayramkoxalı kənd inzibati ərazi nümayəndəliyi və bələdiyyəsi qışı tam hazırlıqlı qarşılamaq əzmindədir.

***«Qəbələ».***